# Milli Məclisin Sədri Sahibə Qafarova Berlində "Ümummilli Lider Heydər Əliyev və Azərbaycanın mədəni irsi"adlı sərgi ilə tanış olub

**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Almaniya Federativ Respublikasında rəsmi səfərdədir.**





Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfər çərçivəsində Milli Məclisin Sədri Sahibə Qafarova paytaxt Berlində yerləşən "Gallery Berlin"də təşkil olunan "Ümummilli Lider Heydər Əliyev və Azərbaycanın mədəni irsi" adlı fotosərgi ilə tanış olub.

Azərbaycan parlamentinin spikeri müasir müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyevin misilsiz xidmətləri haqqında danışıb, onun Azərbaycan mədəniyyətinə diqqət və qayğısı barədə fikirlərini bildirib. O, Prezident İlham Əliyevin bütün digər sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də əsası Ulu Öndər tərəfindən qoyulmuş işləri uğurla davam etdirdiyini qeyd edib, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə bu sahədə reallaşdırılan irimiqyaslı layihələri diqqətə çatdırıb. Tədbirdə həmçinin "Heydər Əliyev İli" çərçivəsində Milli Məclis tərəfindən təşkil olunan tədbirlər barədə də məlumat verilib. Sonra Azərbaycan parlament nümayəndə heyətinin üzvləri - Almaniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Nurlan Həsənov, deputatlar Elnur Allahverdiyev, Soltan Məmmədov, Elşən Musayev, parlament Aparatının rəhbəri Fərid Hacıyev və digər rəsmi şəxslər sərgi ilə tanış olublar. Sərginin ziyarətçilərdə böyük marağa səbəb olduğu vurğulanıb.

***"Azərbaycan"***

Azərbaycan. - 2023.-1 dekabr, № 262.- S.4.